# AZƏRBAYCAN DİLİ

FƏNNİ ÜZRƏ ELEKTRON DƏRS VƏSAİTİ

# IV.Sintaksis

## 73. Adlıq cümlə

# Adlıq cümlə

**Adlıq cümlələr** xəbərlik şəkilçisi qəbul etməyən sözlərdən və söz birləşmələrindən ibarət olur. ***Qarabağ. Şuşa. Xan sarayı.***

## Xüsusiyyətləri

| | | | | |
|---|---|---|---|---|
| Cümlə kimi formalaşmır, onların xəbəri olmur. Deməli cümlənin əsas əlaməti predikativlik yoxdur. | Əsasən yazılı nitq faktorudur. Şifahi nitqdə istifadə olunmur. | Daha çox dram əsərlərinin remarkaları nda işlənir. | Ayrıca söz birləşməsi ilə nəyinsə adı çəkilir, lakin o haqda heç nə deyilmir. | Bitkin cümlələrə nisbətən fikri qısa az- sözlə ifadə etməyə imkan verir. |

# Qrammatik mənaları

| Şəxs bildirir | Əşya bildirir | Yer bildirir | Zaman bildirir |
| --- | --- | --- | --- |
| ***Bir dünyamız, bir sən özün, bir də mən.*** | ***Hacı Həsənin evi.*** | ***Şuşa qalası.*** | ***XVIII əsr.*** |

# IV.Sintaksis

## 74. Söz cümlə

# Söz cümlə

Mükalimə zamanı bəzi sorğulara (bəzi sual cümlələrinə) **bəli, xeyr, yox** sözləri ilə cavab verilir və bunula deyilən fikir təsdiq və ya inkar edilir. Belə yerdə həmin sözlər fikir ifadə etmiş olur.

-***Nərgiz, İstanbula sabah gedirsən?***

-***Bəli.***

Bu sözlər deyilmiş fikirləri təsdiq və ya inkar məqamında işlənir. Mətn olmasa, mükalimə olmasa, onların mənası anlaşılmaz. Onlar öz- özlüyündə cümlə olsaydılar, o halda fikir ifadə edərdilər.

# IV.Sintaksis

## 75. Müxtəsər və geniş cümlə

# Müxtəsər cümlə

Mübtəda və xəbərdən ibarət olan cümlələrə yaxud təkcə xəbərdən ibarət olan cümlələrə **müxtəsər cümlə** deyilir.

Mübtəda və xəbərdən ibarət olanlar: ***Zəng çalındı.***

Yalnız xəbərdən ibarət olanlar: ***Oxuyun.***

# Geniş cümlə

İkinci dərəcəli üzvləri olan cümlələrə **geniş cümlələr** deyilir.

Mübtədası olanlar: ***Uşaqlar xəstə müəllimi yoxlamağa getdilər.***

Mübtədası olmayanlar: ***Ayazlı, şaxtalı bir qış axşamı. Yeddi yoldaş olub yora düzəldik.***